**Dostəli Ə.** Azərin də ruhu şaddır // Xalq qəzeti. - 2024. - 24 yanvar. - **№ 14**. - S. 8.

**Şəhidlərin ata ocaqları müqəddəs ziyarət ünvanına çevrilib. Ziyarətçilər onların ruhunu ehtiramla yad edir, valideynlərinə səbir diləyir, Vətən uğrunda canlarından keçən igidlərin heç zaman unudulmayacağını bildirirlər.**
Bu yaxınlarda Biləsuvar şəhərində 24 yaşı tamam olan Azər Məmmədovun ailəsinə baş çəkənlər də onların qapısını eyni missiya ilə açıblar. Rayon icra hakimiyyətinin rəsmiləri, ictimai təşkilat rəhbərləri, YAP fəalları şəhid valideynləri, qazilər və ictimaiyyət nümayəndələri onun ölməz xatirəsini yad edib, şərəfli həyat və döyüş yoluna nəzər salıblar. Hər kəs şəhidin adı ilə fəxr etdiyini söyləyib.

Azər Məmmədov 9 yanvar 1990-cı ildə Biləsuvar şəhərində anadan olub. 1997–2008-ci illərdə Ə.Eynullayev adına şəhər 4 nömrəli tam orta məktəbində təhsil alıb. Azərbaycan Respublikası Daxili İşlər Nazirlyinin Daxili Qoşunlarının MAHHXHQ sıralarında qulluq edib. Ötən ilin sentyabr ayında ölkəmizin suverenliyinin tam təmin olunması məqsədilə keçirilən antiterror tədbirləri zamanı şəhadətə ucalıb. Sentyabrın 21-də ata yurdundakı qəbiristanlıqda dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Məmmədov Azər Sulduz oğlu ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.

Atası Sulduz kişi ziyarətçilərə minnətdarlığını bildirərək oğlu haqqında xatirələrini danışıb. Şəhidin dəfn və 40 mərasimlərinin rayonda urvatlı bir şəkildə keçirilməsindən razılığını bildirib. O, vurğulayıb ki, Azər həmişə əziz eloğlusu, xalqımızın fəxri olan Milli Qəhrəman Mübariz İbrahimovu xatırlayır və deyirdi ki, belə oğulları olan Vətən basılmaz. Çox keçməz ki, torpaqlarımız erməni işğalından azad olunar. Özü də dəfələrlə Mübariz İbrahimovun ev-muzeyinə gedərək onun xatirəsini yad etmişdi…

Taleyin gərdişinə baxın ki, mübarizlərin yüksək vətənpərvərlik ənənəsini davam etdirən Azərin ata ocağı da bu gün ziyarət yerinə çevrilib. YAP Biləsuvar Rayon Təşkilatının sədri Kamil Qurbanlı qeyd edib ki, Vətənə olan sevgi anaya məhəbbəti ilə bir tutulur. Elə “Ana Vətən” anlayışı da bu sevgidən yaranıb. İnsan bir ailədə doğulsa da, Vətən torpağında böyüyüb boya-başa çatır. Bunun üçün də onu müdafiə etməyə və qorumağa hər zaman borcludur. Tarixi qəhrəmanlıq ənənələrini qoruyan oğullarımız döyüş meydanında düşməni 44 günə darmadağın edərək tarix yazdılar. Ali Baş Komandanın rəhbərliyi altında, xalqın dəstəyindən güc alan mərd oğullarımız qısa müddət ərzində tarixi torpaqlarımızı işğaldan azad etdilər. Artıq bu gün müqəddəs amal uğrunda şəhadətə yüksələn oğullarımızın ruhu şaddır. Çünki ötən il sentyabrın 19–20-də 23 saat ərzində keçirilən lokal xarakterli antiterror tədbirləri ilə tarixi torpaqlarımız düşməndən tam təmizlənib, separatçı tör-töküntülər layiqincə cəzalandırılıblar. Bu fərəhi bizə yaşadan Azər Məmmədov kimi oğullarla hamımız fəxr edirik.

Şəhid Azər Məmmədov ailəli olub, onun 1 oğul və 1 qız övladı dövlətimizə və xalqımıza əmanətdir.